# COVİD-19-un Azərbaycanda gənclərin məşğulluğuna və təhsilinə təsirinin qiymətləndirilməsi

**Müəllif:**

Qubad İbadoğlu

**İcmal**

Martın 11-də Dünya Səhiyyə Təşkilatı COVİD-19 pandemiyasını (bundan sonra pandemiya) elan etdi. Pandemiyanın müxtəlif təsirləri fəqli yaş qrupları üzrə kəskin fərqlənirdi. Yaşlı qrup onun epidemoloji və tibbi təsirlərindən, gənc nəsil isə sosial-iqtisadi təsirlərindən əziyyət çəkir. Bu təqdiqat pandemiyanın 2020-ci ildə 18-29 yaşlı Azərbaycan gənclərinin məşğulluğuna və təhsilinə təsirlərinin qiymətləndirilməsinə həsr olunub. Odur ki, tədqiqat 2 bölmədən - təhsil və məşğulluqdan - ibarətdir.

<u>**Qısaltmalar:**</u>

**BMT İP** - BMT İnkişaf Proqramı
**DB** - Dünya Bankı
**DST** - Dünya Səhiyyə Təşkilatı
**DMA** - Dövlət Məşğulluq Agentliyi
**DSK** - Dövlət Statistika Komitəsi
**DSMF** - Dövlət Sosial Müdafiə Fondu
**İN** - İqtisadiyyat Nazirliyi
**İSF** - İşsizlikdən Sığorta Fondu
**ƏƏSMN** - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**ÜDSY** - Ünvanlı dövlət sosial yardımı
**KTS** - Kənd təsərrüfatı üzrə subsidiya
**MN** - Maliyyə Nazirliyi
**MB** - Mərkəzi Bank
**NK** - Nazirlər Kabineti
**SİF** - Sahibkarlığın İnkişafı Fondu
**MAS** - Məşğulluq altsistemi

**Bakı – 2021**

## Mündəricat

**Giriş** ........................................................................................................................ 3

**Metodologiya**..........................................................................................................................5

**I. COVİD-19-un Azərbaycanda gənclərin məşğulluğuna təsirinin qiymətləndirilməsi**

**1.1.** Azərbaycanda gənclərin məşğulluğunun statistik təhlili ........................................................6

**1.2.** Azərbaycan hökumətinin məşğulluğun pandemiyanın təsirlərindən qorunması tədbirlərinin icmalı və qiymətləndirilməsi .......................................................... 9

**1.3.** COVID-19 pandemiyasının Azərbaycanda gənclərin (18-29 yaş arası) məşğulluğuna təsirinə dair sorğunun nəticələrinin təhlili ...................................................................... 15

**II. COVID-19 pandemiyasının Azərbaycanda gənclərin (18-29 yaş arası) təhsilinə təsirinin qiymətləndirilməsi**

**2.1.** Şagird və tələbələr pandemiya dövründə online təhsili necə qiymətləndirir? .................... 26

**2.2.** Müəllimlər pandemiya dövründə online təhsil necə qiymətləndirir? .................................32

**III. Nəticələr**

**3.1.** Məşğulluq sahəsində ............................................................................................... 37

**3.2.** Online təhsil sahəsində ..........................................................................................42

**Əlavələr**.........................................................................................................................44

5

## Giriş

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununa[1] dəyişikliklər və əlavələr edilməsi barədə" Qanuna əsasən Azərbaycanda 14-29 yaşlarında olanlar gənc hesab edilir. 5 may 2007-ci il tarixdə edilən dəyişiklik gənclərin yaş həddinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədinə xidmət edib.

Dövlət Statistika Komitəsinin məlumatına görə[2], 2020-ci ilin 1 yanvar tarixinə, ölkə əhalisinin 2,4 milyon nəfərini və ya 23,6 faizini gənclər təşkil edir. Gənclərin 50,2 faizi şəhər yerlərində, 49,8 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 47,8 faizini qadınlar təşkil edir. Azərbaycanda gənclər siyasəti, o sıradan onların məşğulluğu, təhsili və sağlamlığı ilə əlaqədar məsələlər 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanunu, 2005, 2011 və 2017-ci illərdə "Azərbaycan gəncliyi Dövlət Proqram"ları[3], "2015–2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf Strategiyası"[4] ilə tənzimlənir.

Gənclərin inkişafında və müstəqil həyata qədəm qoymağından heş şübhəsiz ki, ən vacib olanı onların təhsili və məşğulluğudur. Odur ki, **g**ənclərin inkişafında təhsil və məşğulluğun rolu və əhəmiyyətni nəzərə alaraq həm Dövlət Proqramlarında, həm də Strategiyada əlaqədar dövlət və qeyri-dövlət orqanlarının qarşısına xüsusi vəzifələr qoyulub. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında qeyd olunur ki, gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorların, texnoparkların yaradılması onların maddi durumunun, rifah halının daha da yaxşılaşdırılmasına imkan verib. Proqramın qarşısında duran vəzifələr arasında gənclərin bilik və bacarıqlarının inkişafı, sahibkarlıq və məşğulluq imkanlarının, gənclər arasında ixtisas və peşə seçimi, əmək bazarı və məşğulluq haqqında məlumatlılığının artırılması da nəzərdə tutulub. Proqramın qarşıya qoyduğu

[1] "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasinin Qanunu, Bakı şəhəri, 9 aprel 2002-ci il, № 297-IIQ, http://www.e-qanun.az/alpidata/framework/data/1/c_f_1619.htm

[2] "Azərbaycan gəncləri" adlı statistik məcmuə, 2020, DSK, https://www.stat.gov.az/source/demoqraphy/ay/

[3] Dövlət Proqramları siyahısı, Azərbaycan Respublikasinin Gənclər və İdman Nazirliyi https://www.mys.gov.az/qanunvericilik/dovlt-proqramlari

[4] 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 yanvar tarixli Sərəncamı, https://president.az/articles/14132

vəzifələrdən biri də ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin mütərəqqi ideya və təşəbbüslərinin dəstəklənməsidir.

"2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"[5]nda qeyd olunur ki, gənclərin sağlamlığı, təhsili, məşğulluğu, sosial müdafiəsi və digər sahələrdə dövlət tərəfindən geniş miqyaslı tədbirlər həyata keçirilib. Bu diqqətin bariz nümunəsi olaraq 2 Fevral Azərbaycan Gəncləri Günü elan edilib, gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin ictimai əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu təsis olunub.

Strategiyada o da qeyd olunub ki, gənclərin qeyri-hökumət təşkilatlarına yönləndirilmiş maliyyə vəsaitinin həcmi ilbəil artaraq gənclər arasında könüllülüyün dəstəklənməsini, onların liderlik bacarıqlarının artırılmasını və müəyyən mənada həm də məşğulluğunu təmin edib.

Bununla yanaşı, Strategiyanın vəzifələrinə gənclər arasında ixtisas və peşə seçimi, əmək bazarı və məşğulluq haqqında məlumatlılıq səviyyəsini artırmaq, gənclər evlərində (mərkəzlərində) ixtisaslaşmış mütəxəssislər vasitəsilə karyera məsləhət xidmətlərini inkişaf etdirmək, gənclərin məşğulluğunun təmin edilməsi üçün onların peşəkarlığını artıran tədbirlər görmək, aztəminatlı gənc ailələrə şəxsi təsərrüfatlarını qurmaq, inkişaf etdirmək və ya fərdi əmək fəaliyyəti ilə məşğul olmaqla gəlirlərini artırmaları üçün davamlı dəstək vermək və regionlarda yaşayan gənclərin təhsil, məşğulluq və mədəniyyət sahəsində imkanlarını genişləndirmək daxildir. Strategiyanın qarşıya qoyduğu əsas vəzifələrdən biri də gənc mütəxəssislərin bilik və bacarıqlarını işəgötürənlərin tələblərinə uyğunlaşdırmaq məqsədi ilə beynəlxalq standartlara cavab verən təhsil proqramları hazırlamaq və tətbiq etməkdən ibarətdir. Göründüyü kimi, gənclər siyasəti ilə bağlı dövlət proqramında və strategiyasında məşğulluq və təhsil məsələlərinə xüsusi diqqət yetirilib.

Bu tədqiqatda pandemiyanın Azərbaycan gənclərinin məşğulluq və təhsilinə təsirləri araşdırılır.

[5] 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 yanvar tarixli Sərəncamı, https://president.az/articles/14132

## Metodologiya

Dünya Səhiyyə Təşkilatı Çinin Vuhan vilayətində 31 dekabr 2019-cu ildə aşkar *SARS-CoV-2* virusu ilə bağlı beynəlxalq ictimaiyyəti yanvarın 12-də məlumatlandırsa da, bu virus Azərbaycanda ilk dəfə fevralın 28-də qeydə alındı.

Gənclər arasında işsizlik səviyyəsinə COVİD-19 pandemiyasının təsirləri heç şübhəsiz ki, yüksək olub. Bu barədə rəsmi açıqlamalar olmadığına və tədqiqatlar aparılmadığına görə bu tədqiqat hesabatının hazırlanması zamanı emprik metodlardan istifadə olunub. 18-29 yaşlı işsiz gənclər və yaş qrupundan asılı olmayaraq bütün işəgötürənlər arasında sorğu keçirilib. Sorğu keçirilərkən, demoqrafik göstəricilər üzrə gənclərin yaş göstəriciləri respondentlərin seçimi üçün meyar kimi götürülüb.

Gənclər arasında işsizlik səviyyəsinə COVİD-19 pandemiyasının təsirlərini qiymətləndirmək məqsədilə təsadüfi seşim yolu ilə 18-29 yaşlı 283 gəncin və işəgötürənlərin mövqeyinin öyrənilməsi ilə bağlı həyata keçirilən sorğuda 50 menecer və insan resursları üzrə mütəxəssis də iştirak edib.

Gəncləin online təhsilinin səviyyəsinə COVİD-19 pandemiyasının təsirlərini qiymətləndirmək məqsədilə təsadüfi seşim yolu ilə 18-29 yaşlı 182 şagird və tələbənin, eləcə də tədrisi həyata keçirən müəllimlərin mövqeyinin öyrənilməsi ilə bağlı həyata keçirilən sorğuda 120 orta məktəb və Universitet müəllimi də iştirak edib.

Hər 4 sorğu paralel olaraq 2020-ci ilin dekabr və 2021-ci ilin yanvar aylarında keçirilibş

Bununla yanaşı, gənclərin iştirakı ilə fokus qrup müzakirəsi təşkil olunub. 7 işsiz gəncin iştirak etdiyi müzakirədə işaxtaran gənclərin işə qəbul prosesi ilə bağlı rəyləri öyrənilib.

Tədqiqat çərçivəsində masa araşdırması aparılıb, möcud vəziyyəti dəyərləndirmək üçün "Azərbaycan gəncləri", "Əmək bazarı" statistik məcmuələrinin məlumatları nəzərdən keçirilib, müvafiq göstəricilər üzrə təhlillər aparılıb.

Nəhayət, tədqiqat çərçivəsində Azərbaycan Respublikası hökumətinin pandemiyanın məşğulluğa neqativ təsirlərinin qarşısının alınması məqsədilə həyata keçirdiyi xüsusi siyasət alətləri də nəzərdən keçirilib, pandemiya dövründə məşğulluğun qorunması siyasəti qiymətləndirilib.

# I. COVİD-19-un Azərbaycanda gənclərin məşğulluğuna təsirinin qiymətləndirilməsi

## 1.1.Azərbaycanda gənclərin məşğulluğunun statistik təhlili

Dövlət Statistika Komitəsinin (DSK) "İşçi qüvvəsinə dair" (Əhalinin iqtisadi fəallığına dair) seçmə statistik müayinəsinin 2019-cu ilin yekunlarına olan məlumatına görə[6], 2020-ci ilin 1 yanvar tarixinə, pandemiya başlamışdan əvvəl, 15-29 yaşlı iqtisadi fəal gənclərin sayı 1370,4 min nəfər, onlardan məşğul əhalinin sayı 1250,5 min nəfər olub. Məşğul gənclər arasında qadınlara (577,6 min nəfər) nisbətən kişilər (672,9 min nəfər) üstünlük təşkil edib.

15-29 yaş aralığında olan məşğul 1250,5 min gəncin 20,6 faizi ali, 11,0 faizi orta ixtisas, 3,9 faizi peşə, 55,6 faizi tam orta, 8,8 faizi ümumi orta və 0,1 faizi ibtidai təhsilə malikdir. Gənclər arasında işsizlıyə gəlincə, "İşçi qüvvəsinə dair" müayinənin yekunlarına görə, ölkədə işsiz əhalinin sayı 251.6 min nəfər olub ki, onun da 119,9 min nəfərini və ya 47,6 faizini 15-29 yaşlı gənclər təşkil edib. 15-29 yaşlı işsiz gənclərin 53,9 min nəfərini kişilər, 66,0 min nəfərini qadınlar təşkil edib.

15-29 yaşlı işsiz gənclər arasında ən çox işsizlik 20-24 yaş qrupunda qeydə alınıb. Bu yaş qrupu üzrə işsizlik gənclərin işsizliyində 51,2 faiz xüsusi çəkiyə malikdir.

15-29 yaşlı 119,9 min nəfər işsiz gəncin 12,3 faizi ali, 11,1 faizi orta ixtisas, 4,3 faizi peşə, 60,5 faizi tam orta, 11,8 faizi ümumi orta təhsilə malik olub.

2020-ci il yanvar ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 81,3 min nəfər olub, onun da 28,8 faizi və ya 23,4 min nəfəri 15-29 yaşlı gənclər olub. Bu dövrdə işə düzəldilmiş gənclərin sayı 24033 nəfər təşkil edib ki, onlarln da 1358 nəfəri peşə təliminə göndərib, 8456 nəfəri ictimai işlərə cəlb olunub.

2020-ci il yanvar ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin 37,7 faizini qadınlar təşkil edib. Bu dövrdə işsizlikdən sığorta ödənişinin orta məbləği 276,4 manat olub.

[6] "Azərbaycan gəncləri" adlı statistik məcmuə, 2020, DSK, https://www.stat.gov.az/source/demoqraphy/ay/

Göründüyü kimi, məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsizlərin arasında təxminən hər 3 nədərdən 1-i 15-29 yaşlı gənc olub.

DSK-nın "İşçi qüvvəsinə dair" (Əhalinin iqtisadi fəallığına dair) seçmə statistik müayinəsi əsasında gənclərin iqtisadi fəal, məşğul və işsiz əhali arasında xüsusi çəkisi ilə cədvəl 1-də tanış ola bilərsiniz.

**Cədvəl 1. İqtisadi fəal əhalinin, o cümlədən məşğul və işsiz əhalinin yaş qrupları üzrə sayı**

| Yaş qrupları | İqtisadi fəal əhali | | o cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | məşğul əhali | | işsiz əhali | |
| | Cəmi | onlardan qadınlar | Cəmi | onlardan qadınlar | Cəmi | onlardan qadınlar |
| Cəmi | 5190,1 | 2526,0 | 4938,5 | 2381,7 | 251,6 | 144,3 |
| 15-19 | 107,4 | 47,6 | 92,6 | 40,5 | 14,8 | 7,1 |
| 20-24 | 505,5 | 237,1 | 444,1 | 203,8 | 61,4 | 33,3 |
| 25-29 | 757,5 | 358,9 | 713,8 | 333,3 | 43,7 | 25,6 |

**Mənbə:** Dövlət Statistika Komitəsi, "Əmək bazarı" Statistik məcmuə - 2020

Cədvəl məlumatlarından göründüyü kimi, "İşçi qüvvəsinə dair" hesabat üzrə iqtisadi fəal əhalinin 4,84 faizi işsizdir. 2020-ci ilin 1 yanvar tarixinə 15-29 yaşlı əmək qabliyyətli gənclərin sayı 1.370,1 mln. nəfər olub. Həmin dövrə gənclər arasında işsizlərin bütün yaş qrupları üzrə birlikdə sayı 119,9 min nəfər təşkil edir. Belə olan halda gənclər arasında işsizlik səviyyəsi 8,75 faiz təşkil edir ki, bu da ölkə üzrə orta işsizlik səviyyəsindən 3,91 faiz bəndi yüksəkdir.

Dövlət Məşğulluq Agentliyi (DMA) orqanlarında rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı ötən ilin yalnız 1-ci rübü üzrə açıqlanandan sonra bu məlumatın dərci aprelin 1-dən, pandemiyanın iqtisadiyyata və məşğulluğa təsirləri hiss olunmağa başlayandan dayandırılıb. Son göstəricilər cədvəl 2-də təqdim olunur.

**Cədvəl 2. 2019-cu ilin sonunda və 2020-ci ilin ilk 3 ayında DMX orqanlarında rəsmi qeydiyyatda olan işsizliyin səviyyəsi**

| 2020-ci il | Məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı | İşsizlik müavinəti | İşsizlikdən sığorta məbləği, manatla |
|---|---|---|---|

| | Cəmi, min nəfərlə | Onlardan qadınlar, faizlə | alanların sayı, nəfərlə | |
|---|---|---|---|---|
| 1 yanvar | 81,3 | 37,7 | 540 | 276,4 |
| 1 fevral | 86,2 | 37,7 | 536 | 295,6 |
| 1 mart | 90,8 | 37,8 | 501 | 338,9 |
| 1 aprel | 100,8 | 36,9 | 510 | 309,0 |

**Mənbə:** DSK[7]

Cədvəl məlumatlarından görünür ki, ötən ilin ilk rübündə rəsmi işsizlərin sayı ilə müqayisədə işsizlik müavinəti alanların sayı çox aşağıdır. Belə ki, bu nisbət 2020-ci ilin yanvar ayında 0,66 faiz, fevral ayında 0,62 faiz, mart ayında 0,55 faiz, aprel ayında 0,50 faiz təşkil edib. İşsizlikdən sığorta olunanların sayının az olmasına gəlincə, 1 yanvar 2018-ci il tarixdən qüvvəyə minmiş “*İşsizlikdən sığorta haqqında” qanuna* əsasən dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar işsizlikdən sığorta ödənişini almaq hüququna malikdirlər.[8]

Bu o deməkdir ki, işsiz kimi qeydiyyata düşənlərin heç də hamısına işsizlikdən sığorta haqqı ödənilmir. Hesab edirəm ki, qanunun bu maddəsində müvafiq dəyişikliklər edilməli, işsizlərin hamısına işsizlikdən sığorta haqqı almaq hüququ tanınmalıdır.

Birdəfəlik yardımın ödənilməsi üçün birinci şərt işsiz kimi qeydiyyat düşüb status qazanmaq olduğundan və bununla əlaqədar olaraq müraciətlərin sayı artdığından aidiyyəti dövlət orqanları nəinki işsizlərin yaş qrupları üzrə sayını, hətta statistik sayını belə açıqlamırlar. Bununla əlaqədar olaraq ən son göstərici ötən ilin 1 aprel tarixinədir.

[7] DSK 2020-ci ilin aprel ayından sonra DMX orqanlarında rəsmi qeydiyyatda olan işsizlərin sayı ilə bağlı məlumatları açıqlamadığından cədvəl bu ilin 1-ci rübünün materialları əsasında tərtib olunub.

[8] “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu, http://e-qanun.gov.az/framework/36310 ; İşsizlikdən sığorta ödənişi, http://sosial.gov.az/ishsizlikdensigortaodenishi

## 1.2. Azərbaycan hökumətinin məşğulluğun pandemiyanın təsirlərindən qorunması tədbirlərinin icmalı və qiymətləndirilməsi

Dünya Səhiyyə Təşkilatı (DST) 11 mart 2020-ci ildə COVID-19 virusunu qlobal pandemiya elan etdikdən sonra 19 mart 2020-ci il tarixində "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[9] imzalandı.

Qeyd olunan məqsədlərin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin (İN), Maliyyə Nazirliyinin (MN), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) və Mərkəzi Bankın (MB) rəhbərliyi ilə işçi qrupların yaradılması və COVID-19 virusunun Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci il dövlət büdcəsindən Nazirlər Kabinetinə (NK) 1.0 milyard manat ayrılması qərara alındı. Sərəncamla NK-ya tapşırıldı ki, işçi qrupların fəaliyyətini əlaqələndirsin və verilmiş təklifləri ümumiləşdirərək vahid tədbirlər planını təsdiq etsin.

4 aprel 2020-ci ildə baş nazir Əli Əsədov Prezident sərəncamının icrası ilə bağlı Tədbirlər Planını təsdiq etdi.[10] Tədbirlər Planında dövlət büdcəsindən pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsi (iş yerlərinin azaldılmaması məqsədilə) üçün 300 min nəfəri əhatə etməklə, 215 milyon manat, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi (iş yerlərinin azaldılmaması məqsədilə - əsas meyar kimi 2019-cu ildə vergi ödənişlərini, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta ödənişlərini həyata keçirmiş

---

[9] https://president.az/articles/36228

[10] "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli, 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Baş Nazirin sərəncamı. 04.04.2020. https://nk.gov.az/az/document/4367/

vergi ödəyicilərinə şamil edilməklə) üçün 300 min nəfəri əhatə etməklə 80 milyon manat ayrılması nəzərdə tutulurdu.

Bundan əlavə, Tədbirlər Planında pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) veriləcək 0.5 milyard manat həcmində bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması üçün 20 milyon manat, Sahibkarlığın İnkişafı Fonduna (SİF) əlavə 50 milyon manat, güzəştli ipoteka kreditləri üçün ayrılan vəsaitlərin həcminin artırılması üçün 90 milyon manat, həyati vacib sərnişindaşıma sahəsinə maliyyə dəstəyinin verilməsi üçün 280 milyon manat büdcə vəsaitinin xərclənməsi planlaşdırılırdı. Planda nəzərdə tutulurdu ki, 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğunun 2 aylıq təmin edilməsi məqsədilə 30 milyon manat, DMA orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə 2 ay yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmənin verilməsi üçün isə 70 milyon manat ayrılsın.

Planda İşsizlikdən Sığorta Fondunun (İSF) vəsaiti hesabına BMT İnkişaf Proqramı (BMT İP) və Dünya Bankı (DB) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən özünüməşğulluq proqramının genişləndirilməsi və icrasının sürətləndirilməsi üçün 70 milyon manat, işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və proaktiv təyinat mexanizminin yaradılması üçün 20 milyon manat, işsizlikdən sığorta ödənişi bitmiş, lakin işlə təmin olunmamış şəxslərə və peşə hazırlığı kurslarında fasilə yaranmış müdavimlərə xüsusi karantin rejimi dövründə sığorta ödənişinin və təqaüdlərin davam etdirilməsi, əmək haqlarının birgə maliyyələşdirilməsi proqramının təkmilləşdirilməsi məqsədilə 0.6 milyon manat ayrılması nəzərdə tutulurdu.

Nəhayət, Tədbirlər Planında sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi məqsədilə 40 milyon manat, əhaliyə güzəştli işıq limitinin aprel-may aylarında 100 kvt/saat həcmində artırılması üçün isə 10 milyon manat büdcə vəsaitinin sərf edilməsi təsbit olunmuşdu.

Planda sosial sığorta haqlarının azalması şəraitində kəsirinin bağlanması və əhaliyə sosial ödənişlərin (pensiya və müavinətlər) davamlılığının təmin edilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2019-cu il üzrə yaranmış 200 milyon manat ehtiyatının istifadə olunması və ünvanlı dövlət sosial yardımı xüsusi karantin rejimi dövründə bitən ailələrə

(şəxslərə) yardımın verilməsinin xüsusi karantin rejimi bitənədək davam etdirilməsi üçün sözügedən fonddan 3 milyon manat ayrılması nəzərdə tutulurdu.

Qeyd edək ki, NK-nın Tədbirlər Planında nəzərdə tutulmuş bəzi istiqamətlər üzrə xərclənən vəsaitin həcmində və əhatə etdiyi insanların sayında artım oldu, icra müddətləri uzadıldı. Bu barədə növbəti bölmələrdə məlumat veriləcək.

Ümumilikdə pandemiya ilə mübarizə tədbirləri, onun ölkə iqtisadiyyatında yaratdığı mənfi təsirlərin azaldılması üçün Prezidentin müvafiq sərəncamları ilə **dövlət büdcəsindən 1 milyard 409 milyon manat vəsait ayrılıb.** Onların bölgüsü isə belə olub: **Səhiyyəyə 250 milyon manat, sosial-iqtisadi dəstək tədbirlərinə 570 milyon manat, sosial təminat dəstək tədbirlərinə 309 milyon manat, dövlət şirkətlərinə maliyyə dəstəyinə 280 milyon manat.**

Azərbaycan hökümətinin məşğulluğun pandemiyanın təsirlərindən qorunması tədbirlərinin icmalı göstərir ki, pandemiya dövründə gənclərin məşğulluğunun azalmasının qarşısını almaq üçün ayrıca proqram həyata keçirilməyib. Sadəcə olaraq, mövcud proqramlardan gənclərin də faydalanması imkanları olub. Bu əsasən 3 istiqamətdə baş verib.

**1)** Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, pandemiya ilə əlaqədar sosial müdafiə və sosial təminat üzrə maliyyə dəstəyinin göstərilməsi üçün DMA orqanlarında işsiz kimi qeydiyyata alınan 600 min şəxsə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik yardımın verilməsi;

**2)** Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsi;

**3)** Bu tədbirlərdən əlavə, müntəzəm olaraq həyata keçirilən sosial müdafiə proqramlarına pandemiya dövründə diqqət daha da artırılıb. Belə ki özünüməşğulluq proqramına 2018-ci ildə 7300-ə yaxın, 2019-cu ildə 10 mindən çox ailə cəlb edilib. 2020-ci ildə isə əlilliyi olan şəxslərdən ibarət 12 min ailə bu proqram çərçivəsində kiçik təsərrüfat və müəssisələr qurub.[11] 2020-ci ilin ilk 11 ayında, yəni pandemiya dövründə özünüməşğulluq proqramından faydalananların sayı 2019-cu illə müqayisədə 2 min ailəyədək artırılıb və əlilliyi olan şəxslərə üstünlük verilib. Ünvanlı dövlət sosial yardımı (ÜDSY) proqramına 2018-ci ildə 40 min, 2019-cu ildə 72 min ailə cəlb edildiyi halda 2020-ci ilin 11 ayında onların sayı 74.4 min ailəyə və ya

[11] Bu il 1600-dək əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib, http://sosial.gov.az/post_397109

312 min nəfərə çatdırılıb və bununla əlaqədar olaraq 197 milyon manat vəsait xərclənib.[12] Bu proqram çərçivəsində də faydalananların sayı pandemiya dövründə əvvəlki illərlə müqayisədə çoxalıb. Belə ki, 2020-ci ilin 11 ayında ÜDSY-ə cəlb olunanların sayı əvvəlki illə müqayisədə 2,4 min, 2018-ci ilə nisbətən isə 34,4 min ailə artırılıb. 2019-cu ildə ölkə üzrə 38 min ödənişli ictimai iş yeri yaradılığı halda ötən ildə 90 min nəfərin ödənişli ictimai iş yerləri ilə təmin edilməsi nəzərdə tutulmuşdu.[13] Bu isə o deməkdir ki, pandemiya dövründə ödənişli ictimai iş yerlərinə cəlb edilənlərin sayı 52 min nəfərdən çox olub.

Birinci istiqamət üzrə DMX orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə birdəfəlik yardımın verilməsi əhatə dairəsinə və maliyyə tutumuna görə işsiz gənclərə daha çox fayda verə bilməsi ilə seçilir. Belə ki, Tədbirlər Planında nəzərdə tutulan kompensasiya məbləğinin ödənilməsi üçün 200 min işsizə 70 milyon manatlıq birdəfəlik yardım ödənilməsi planlaşdırılmışdı. Tədbirlər Planına görə, birdəfəlik yardım müavinət almayan bütün işsizlərə verilməli idi və elə bu səbəbdən də işsizlərin sayı 200 min nəfər göstərilmişdi. Buna səbəb DSK-nın 2020-ci il aprel ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 100,8 min nəfər göstərməsi olmuşdu.[14]

DSK-nın gerçəkliyi əks etdirməyən hesabatı NK-nın təsdiq etdiyi tədbirlər Planında səhv hesablamalara gətirib çıxardı. Belə ki, Prezident sərəncamı ilə təsdiq olunan Tədbirlər Planında 200 min nəfər üçün 70 milyon manat birdəfəlik yardım nəzərdə tutuldu. Lakin qısa müddətdə işsiz kimi DMX-də onlayn qeydiyyatdan keçənlərin sayının dəfələrlə atması nəticəsində hökümət prezidentin göstərişi ilə birdəfəlik yardımın 600 min işsizə verilməsinə başladı.[15]

Bu yardım faktiki olaraq 600 min nəfərə şamil olunsa da bütün işsizləri əhatə etmədi və onlar üçün nəzərdə tutulan birdəfəlik yardımın ödənilməsi zamanı işsizlər arasından seçim edilməsinə gətirib çıxardı. Əmək naziri Sahil Babayevin açıqladığı məlumatlardan bəlli oldu ki,

---

[12] 11 ayda sosial təminat üzrə ötən ilin eyni dövrünə nisbətən 932 milyon manat çox olmaqla 5 milyard 264 milyon manat yardım edilib, http://sosial.gov.az/post_409347

[13] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında "DOST" mərkəzləri http://dost.gov.az/page/dost-job-center

[14] "2020-ci ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri", https://www.stat.gov.az/news/macroeconomy.php?page=7

[15] Birdəfəlik ödəniş edilmiş 600 min şəxsin siyahısı, http://sosial.gov.az/FWsiyah%C4%B1s%C4%B1/Siyahi600.pdf

bu yardımı almaq üçün müraciət edən 635 min nəfərdən çox işsiz şəxsə imtina cavabı verilib. Babayev bunu həmin işsizlərin aztəminatlılar qrupuna aid olmaması ilə izah edib.[16]

Halbuki, Tədbirlər Planında aydın şəkildə bu vəsaitin DMA orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə ödənilməsi nəzərdə tutulurdu. Buna baxmayaraq, aprelin 7-də NK-nın təsdiq etdiyi qaydalara görə, dövlət qurumlarından aşağıdakı ödənişləri alan işsiz şəxslərə birdəfəlik yardım verilmir: “ÜDSY alan ailələrin üzvlərinə, əmək pensiyaçılarına, aylıq müavinət alanlara, aylıq təqaüd alanlara, özünüməşğulluğun təşkili proqramı çərçivəsində əmlak verilmiş şəxslərə, işsizlikdən sığorta ödənişi alanlara, peşə hazırlığına görə təqaüd alanlara, 2020-ci ildə kənd təsərrüfatı üzrə subsidiya (KTS) almış şəxslərə, əri və ya arvadı sahibkar olanlara (aktiv VÖEN-i olan) və ya ƏƏSMN-in Mərkəzləşdirilmiş elektron informasiya sisteminin Əmək müqaviləsi bildirişi altsistemində aktiv əmək müqaviləsi bildirişi olanlara, əri və ya arvadı ÜDSY və ya KTS alan şəxslərə.”[17]

Beləliklə də, NK-nın təsdiq etdiyi qaydalarda birdəfəlik yardım “Məşğulluq haqqında” qanuna uyğun olaraq işsiz kimi qeydiyyata alınmış və yuxarıda sadalana kateqoriyaya aid olmayan şəxslərə təyin olunub və ödənilib. Onlara  aşağıdakılar aiddir:

- 2020-ci il 1 aprel tarixinə Məşğulluq altsistemində (MAS) işsiz kimi qeydiyyata alınmış şəxslər;
- pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə MAS-da işsiz kimi qeydiyyata alınmış şəxslər.

Bu istiqamətə yekun vurarkən qeyd etmək lazımdır ki, ötən ilin əvvəlinə olan rəsmi statistik məlumatlara görə, gənclər arasında işsizlik səviyyəsi (8,75 faiz) ölkə üzrə işsizlik səviyyəsindən 3,91 faiz bəndi çox olduğuna görə, pandemiya dövründə tətbiq olunan bu proqramlardan faydalananlar arasında da gənclərin üstünlük təşkil etdiyini iddia etmək olar.

İkinci istiqamət üzrə (Koronavirus (COVID-19) pandemiyasından zərər çəkdiyinə görə muzdlu işçilərinə əmək haqlarının müəyyən hissəsinin ödənilməsi) dəstəyin verilməsi üçün ilk növbədə İN tərəfindən pandemiyadan zərər çəkmiş sahələr müəyyənləşdirilib. Nazirlik tərəfindən xüsusi meyarlar əsasında tərtib edilmiş “Əmək haqlarının ödənilməsi üçün maliyyə dəstəyi proqramı ilə bağlı pandemiyadan zərər çəkmiş sahələrin iqtisadi fəaliyyət növlərinin

---

[16] Sahil Babayev: "Birdəfəlik ödəmə alanlardan 8 faizi 20 yaşa qədər olanlardır" https://apa.az/az/sosial_xeberler/Sahil-Babayev-Birdflik-odm-alanlardan-8-faizi-20-yasa-qdr-olanlardir-585208

[17] Nazirlər Kabinetinin qərarı, https://cabmin.gov.az/az/document/4371/

Təsnifatı"na 386 fəaliyyət növü daxildir. Təsnifatda fəaliyyət növünün kodu, adı və fəaliyyət sahəsi xüsusi cədvəlin köməyi ilə verilib. Təsnifat cədvəli İN-nin saytına yerləşdirilib.[18]

İqtisadiyyat naziri Mikayıl Cabbarovun açıqlamasına görə, müəssisələr tərəfindən muzdlu işçilərə ödənilən əmək haqlarının dəstəklənməsi məqsədilə əsas meyar kimi ölkədə yanvar ayına olan orta aylıq əmək haqqı məbləği (712 manat) götürülüb: "Bu məbləğdən daha aşağı olan hər bir işçinin tam həcmdə əmək haqqı dövlət tərəfindən müəssisəyə ödəniləcək. Orta aylıq əmək haqqından daha yuxarı əmək haqqı alan işçi üçün maksimal hədd orta aylıq əmək haqqı səviyyəsində götürüləcək".[19]

Bu dövlət dəstəyinin verilməsində məqsəd pandemiyadan zərər çəkmiş sahələrdə iş yerlərinin sayının azaldılmasının qarşısının alınması olub. Əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsi mexanizmi çərçivəsində pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min muzdlu işçinin (əmək müqaviləsi olan) əmək haqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulmuşdu. Bu mexanizm çərçivəsində vergi ödəyicilərinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) mövcud olan elektron kabinetləri vasitəsilə təqdim etdikləri müraciətlər əsasında onların işçilərinə ödənilməli olan əmək haqlarının və ona müvafiq sosial sığorta haqlarının müəyyən hissəsi işəgötürənlərin bank hesablarına köçürülüb.

Nəhayət, üçüncü istiqamət üzrə vəziyyəti qiymətləndirirkən nəzərə almalıyıq ki, ötən il ərzində yaradılan 90 min ödənişli ictimai iş yerlərindən[20] gənclərin faydalanmaq imkanı olub. Təəssüflər olsun ki, pandemiya dövründə Azərbaycan hökümətinin həyata keçirdiyi proqramlardan bəhrələnənlərin yaş qrupları üzrə təsnifatı verilmir. Ancaq bu proqramların benefisiarları arasında 15-29 yaşlı gənclərin də olması şəksizdir.

---

[18] https://www.e-taxes.gov.az/new/downloads/Fealiyyet_kodlari_pandemiya_yeni.xlsx

[19] Nazir muzdlu işçilərin ödənişinin hansı meyarlar əsasında müəyyən olunacağını və məbləği açıqladı. 08.04.2020. https://apa.az/az/maliyye_xeberleri/Nazir-muzdlu-iscilr-odnisin-hansi-meyar-sasinda-muyyn-olunacagini-v-mblgi-aciqlayib-580566

[20] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında "DOST" mərkəzləri http://dost.gov.az/page/dost-job-center

**1.4. COVID-19 pandemiyasının Azərbaycanda gənclərin (18-29 yaş arası) məşğulluğuna təsirinə dair sorğunun nəticələrinin təhlili**

Sorğu anketinə 19 sual daxil edilib, onlardan 5-i respondentlər haqqında məlumatın toplanmasına, 14-ü isə pandemiyanın onların məşğulluğa təsirinin öyrənilməsinə və pandemiya dövründə hökümətin həyata keçirdiyi dəstək və sosial müdafiə proqramlarının qiymətləndirilməsinə xidmət edib.

Sorğu 283 gənc arasında təsadüfi seçmə üsulu ilə keçirilib. Respondentlərin 81,3 faizi kişi, 18,7 faizi qadın olub, onların 79,3 faizi 25-30 yaş arası, 26,1 faizi 18 yaşından 25 yaşınadək gənclər olub. Respondentlərin 56,2 faizi subay, 43,8 faizi evli olub, onların 65,7 faizi Bakıda, 19,4 faizi digər şəhərdə, 14,8 faizi rayonda yaşayanlar olub.

Məşğulluq göstəricisinə gəlincə, sorğuda iştirak edənlərin 64 faizi işsizlər, 19,4 faizi muzdlu işçilər, 6 faizi qeyri leqal məşğullar, bir o qədəri də xidmət müqaviləsi ilə çalışanlar, yerdə qalan 5 faizə qədəri isə özünüməşğullar və fərdi sahibkarlardan ibarət olub.

İşsiz olanlara ünvanlanan **“Nə vaxtdan işsizsiniz**” sualına respondentlərin cavabı aşağıdakı 6-cı şəkildə təqdim olunur.




Respondentlərin cavabından bəlli olur ki, onların 53,4 faizi işini pandemiya başlamamışdan, 45,6 faizi pandemiya dövründə itirib. İşsizlərin 27,5 faizi işini pandemiya başlayandan dərhal, 10,1 faizi pandemiyadan 6 ay, 9 faizi isə bir neçə ay sonra itirib. Göründüyü kimi, pandemiya dövründə işini itirənlərin yarısından çoxu pandemiyaının ilkin mərhələsində işdən azad olunub.

Pandemiyadan əvvəl işsiz olanların "Nə vaxtdan işsizsiniz" suallarına cavabları onların 26,6 faizinin 5 il və daha çox müddətdə işsiz olmasını göstərib. Respondentlərin 46,6 faizi işsiz olsa da, işsiz kimi qeydiyyata düşməyib, onların 32,4 faizi pandemiya dövründə, 21 faizi pandemiya dövründən əvvəl işsiz kimi qeydiyyata düşdüyünü bildirib. Bunu 8-ci şəkildən görmək olar. İşzislərə müavinət verilməsinin qanunla məhdudlaşdırılıması səbəbinə və birdəfəlik yardımın alınmasındakı çətinliyə görə işsizlərin yarıya qədəri qeydiyyata düşməyə maraq göstərmir. Bu da hətta işsizlərlərin dövlətin dəstək proqramlarının mövcudluğu şəraitində onlardan kənarda qalması deməkdir.




İşsiz kimi qeydiyyata düşənlərin 87,4 faizi ona dövlət məşğulluq orqanlarında iş təklif edilmədiyini, cəmi 8,3 faizi isə təklif olduğunu, lakin məvacib aşağı olduğuna görə imtina etdiyini bildirib. Bu da onu göstərir ki, işsiz kimi qeydiyyata düşən, iş axtaran gənclər nə işlə təminat, nə də işsizlik müavinətinin verilməsi baxımından dövlət proqramlarından bəhrələnə biliblər. Bunu 9-cu şəkildən görmək olar.




Respondentlərin 42,4 faizi pandemiya dövründə dövlətin heç bir dəstək və yardım proqramlarına müraciət etmədiyini bildirib. Sorğu iştirakçılarının 37,8 faizi proqramdan faydalanmaq üçün müraciət etsə də, imtina cavabı aldığını, 19,8 faizi isə dövlətdən yardım aldığını bildirib. Göründüyü kimi dövlət yardımı üçün müraciət edən hər 3 nəfərdən biri ondan faydalana bilib.




Dövlətin dəstək proqramlarından bəhrələnən respondentlərin 38,1 faizi pandemiya dövründə 190 manatlıq birdəfəlik yardımdan faydalandığını bildirib.




**"Hazırda aylıq gəliriniz nə qədərdir"** sualına respondentlərin 59,6 faizi "yoxdur" cavabını verib. 6 faizi 190 manatadək, 5 faizi 190 manatdan 250 manatadək, 9,2 faizi isə 250 manatdan 300 manatadək məvacib aldığını bildirib. Göründüyü kimi respondentlərin 60 faizə qədəri işsiz kimi heç bir gəlirə malik deyil, 11 faizinin gəlirləri isə respublika üzrə minimum əmək haqqıdan aşağıdır.




**"Gəlirləriniz hansı ehtiyacınızı ödəyir"** sualına gəlincə, respondentlərin 49,1 faizi heç bir, 18 faizi ərzaq, 8,5 faizi ərzaq və kommunal xərcləri ödəyir cavablarını veriblər.




Pandemiya dövründə sosial yardım alanların 31,6 faizinin cavabından məlum olub ki, bu yardımı alanların 31,6 faizinin 3-5 günlük, 25,5 faizinin 1 həftəlik, 23,5 faizinin 2 həftəlik, 9,2 faizinin 3 həftəlik, 10,2 faizinin isə 1 aylıq ehtiyaclarını ödəyib.




**“Əgər pandemiya davam edərsə və bir daha yardım ödənilməzsə, hansı planlarınız var”** sualına respondentlərin 59,7 faizi “Heç bir planım yoxdur” cavabını verib, onlardan yalnız 27,9 faizi “İş axtaracam” deyib. Gənclərin hər beş nəfərindən üçünün gələcəklə bağlı plansız olması cəmiyyəti ciddi düşündürməlidir. Bunu yalnız pandemiyanın yaratdığı qeyri-müəyyənliklə deyil, həmçinin ölkədə gənclərin karyera imkanlarının məhdudluğu ilə də izah etmək mümkündür.




Nisbətən nikbin olanlara ünvanlana **"Harda iş axtaracaqsınız**" sualına respondetlərin 41,7 faizi "özəl sektorda", 19,6 faizi "dövlət orqanlarında", 14,7 faizi "xarici şirkətlərdə", 9,3 faizi "qeyri-dövlət təşkilatlarında" cavabını verib. Göründüyü kimi gənclərin çoxu dövlət orqanlarında deyil, özəl bölmədə işləməyə üstünlük verir.




Gənclərin işə qəbul zamanı rastlaşdığı çətinliyə gəlincə, sorğuya cəlb olunanların 23,3 faizi təcrübənin olmamasını, 20,8 faizi təklif oluanan məvacibin az olmasını, 17,3 faizi işə qəbulda qohumbazlığın olmasını, 15,2 faizi isə işə qəbulda rüşvətin olmasını səbəb kimi göstərib. Göründüyü kimi gənclər işə qəbulda neqativ hallarla rastlaşdıqlarını etiraf ediblər. Eyni zamanda, əsas maneə kimi təcrübələrinin olmamasını qeyd ediblər.




Respondentlərin 86,6 faizi pandemiya dövründə gənclərin məşğulluğunun qorunması sahəsində dövlətin siyasətini effekli olmadığını, 10,4 faizi qismən effektli olduğunu, yalnız 3 faizi effektli olduğunu bildirib.




Pandemiya dövründə dövlətin gənclərə göstərdiyi sosial qayğının ədalətli və şəffaf olmasına gəlincə, respondentlərin 84,1 faizi onu nə ədalətli və nə də şəffaf hesab edib, sorğu iştirakçılarının 13,8 faizi qismən ədalətli və şəffaf, 2,1 faizi isə həm ədalətli, həm də effektli olduğunu bildirib.




İşəgötürənlər arasında keçirilən sorğuda 50 respondent iştirak edib ki, onların 92 faizi kişi, 8 faizi qadın olub. Respondentlərin təmsil etdikləri şirkətlərin 26 faizi xidmət, 24 faizi ticarət, 12 faizi sənaye və 8 faizi ictimai iaşə sektorunda fəaliyyət göstərir. Yerdə qalan şirkətlər kənd təsərrüfatı, tikinti, nəqliyyat və mehmanxana sektorunu təmisl ediblər. Onların cavablarından məlum olub ki, respondentlərin 42 faizinin pandemiya dövründə işçilərinin sayı dəyişməyib, 42 faizində azalıb, yalnız 16 faizində artıb.




Respondentlərin 60 faizi pandemiya dövründə işə götürmə siyasətində heç bir dəyişiklik etmədiyini, 34 faizi işəgötürmə qaydaları sərtləşdirdiyini, 6 faizi isə yumşaltdığını bildirib.




Respondentlərin 60 faizi pandemiya dövründə iş axtaranların sayının artdığını bildirib, 28 faizi dəyişmədiyini, 12 faizi isə azaldığını bildirib.




İşəgötürənlərin işə qəbulla bağlı gənclərdən tələbləri məsuliyyət, işgüzalıq, təcrübə və təhsil olub.



**“Nəyə görə gəncləri işə almaqdan imtina edirsiniz**” sualına cavablardan məlum olur ki, işəgötürənlər onların elan olunan peşəyə uyğun gəlmədiyini, təcrübəsiz olduğunu, işi bacara bilmədiyini və təhsillərinin yetərli olmadığını önə çəkiblər.




Respondentlərin 54 faizi pandemiya dövründə dövlətin dəstək proqramına müraciət etmədiyini, 22 faizi müracıət edib, imtina cavabı aldığını, 24 faizi isə faydalandığını bildirib.




Yardımın yetərli olub-olmasına gəlincə, **“Dövlətin məşğulluğa yardım proqramından faydalanmısınız”** sualına sorğu iştirakçılarının 72 faizi “xeyr”, 22 faizi “qismən”, 6 faizi isə “bəli” cavabını verib.




Gənclərin məşğulluğuna dövlət qayğısına gəlincə, 78 faiz respondent onu effektsiz, 20 faizi qismən effektli, 2 faizi isə effektli hesab edib.



## II. COVID-19 pandemiyasının Azərbaycanda gənclərin (18-29 yaş arası) təhsilinə təsirinin qiymətləndirilməsi

*Həm təhsilalanlar (şagird və tələbələr), həm də təhsilverənlər (müəllimlər) tərəfindən online təhsilin qiymətləndirilməsinin aparılması üçün emprik tədqiqat metodundan istifadə olunub. Bu məqsədlə təhsilin tərəfləri olan müəllimlər və tələbələr (şagirdlər) arasında iki müxtəlif sorğu keçirilib. Sorğuda oxşar sualların qoyulması online təhsilin iki tərəfinin bir-birlərininin fəaliyyətini qarşılıqlı qiymətləndirməsinə imkan verib. Bununla yanaşı, sorğularda online təhsilin keyfiyyətinə birbaşa təsir edən texniki, təchizat və metodki məsələlərin də dəyərləndirilməsi aparılıb və online  təhsilin (tədris mühitinin) keyfiyyətinin yüksəldilməsi ilə bağlı tərəflərin fikirləri öyrənilib, təkliflər toplanılıb. Tədqiqiat hesabatının hazırkı, ikinci bölməsində hər iki sorğunun nəticələri təqdim olunur.*

### 2.1. Şagird və tələbələr pandemiya dövründə online təhsili necə qiymətləndirir?

182 gənc (şagird, tələbə) arasında keçirilən sorğunun məqsədi onların online tədrisin təşkilinə və idarəolunmasına münasibətini öyrənmək və rəylərini toplamaq olub. Sorğuda  iştirak edənlərin 49,5 faizi qadın, 50,5 faizi kişidir. Respondentlərin 77,5 faizi 18-25, 22,5 faizi isə 25-29 yaş qrupunu təmsil edib. Sorğuda iştirak edənlərin 84,6 faizi subay, 15,4 faizi isə evlidir. Onların 62,1 faizi Bakıda, 24,7 faizi rayonlarda, 13,2  faizi isə digər şəhərlərdə yaşayanlardır.

Respondentlər müxtəlif təhsil qruplarını təmsil ediblər. Onların 36,3 faizi natamam ali, 26,4 faizi tam ali, 19,8 faizi magistr, 12,6 faizi tam orta, 2,7 faiz natamam orta, 2,2  faizi isə doktorantura pilləsində təhsil alır. Respondentlərin cavabından məlum olur ki, onların 84,1 faizi təhsilini tam, 10,4 faizi qismən online davam etdirir. Online formatda aparılan təhsilin 52,2 faizi “Microsoft Teams”də, 34,1 faizi “Zoom”da, 3,8 fazi “Whatsapp”da, 2,2 faizi “Skype”da, 1,1 faizi “Google meet”də və digər platformalarda təşkil olunub.  Dərs günündə online təhsilə respondentlərin 44,5 faizi 1-3 saat, 35,7 faizi 3-5 saat, 10,4 faizi 5 saatdan çox, 9,3 faizi isə 1 saata qədər vaxt ayırıb. Onların online təhsil zamanı qarşılaşdığı çətinliklər internetə çıxış (30,8 faiz), tədrisin keyfiyyətinin aşağı olması (30,2 faizi), tədris mühitinin yetərsizliyi (18,1 faiz), texniki avadanlıqla təminat (9,3 faiz), uyğun mənzil şəraitinin olmamasıdır (7,1 faiz).

Respondentlərin cəmi 0,5 faizi heç bir çətinliyinin olmadığını bildirib. Bu vəziyyəti 10 saylı şəkil xarakterizə edir. Göründüyü kimi respondet tələbə və şağirdlərin 40,2 faizi on-line tədris sahəsində problemləri texniki, 48,3 faizi isə idarəçilikdə görür.




Online tədris dövründə internetə çıxış zamanı çətinliklərlə üzləşənlərin 55,5 faizi səbəb kimi internetin keyfiyyətsiz olmasını, 28,6 faizi internetin sürətinin aşağı olmasını, 12,6 faizi internet qiymətlərinin bahalığını göstəriblər. Yalnız 0,5 faiz respondent internetdə problemlə qarşılaşmadığını bildirib.




Online təhsil zamanı texniki avadanlıq sarıdan çətinlik çəkənlərin 26,9 faizi kompüterinin müasir standartlara cavab verməməsini, 25,8 faizi şəxsi kompüterinin olmamasını, 12,1 faizi şəxsi tabletinin olmamasını, 7,7 faizi smart telefonunun müasir standartlara cavab verməməsini,

3,8 faizi şəxsi smart telefonunun olmamasını qeyd edib. Respondetlərin yalnız 2,7 faizi texniki probleminin olmadığını bildirib.




Sorğuya cəlb olunanların 49,5 faizi online tədrisin keyfiyyətini orta, 45,1 faizi pis, 5,5 faizi yaxşı qiymətləndirib.




Online tədrisin keyfiyyətinin aşağı olmasını qeyd edən sorğu iştirakçılarının 30,1 faizi səbəb kimi müəllimlərin həvəsinin və marağının olmamasını, 20,4 faizi müəllimlərin dərslərə vaxt çatdıra bilməməsini, 14,6 faizi müəllimlərin texniki biliklərinin aşağı olmasımı, 13,6 faizi

müəllimlərin peşəkar olmamasını, 1,9 faizi internet probleminin mövcudluğunu gösətriblər.




Respondentlərin 52,7 faizi online təhsil mühitini pis, 40,1 faizi orta, 7,1 faizi isə yaxşı qiymətləndirib.




Online təhsil zamanı mühitin pis olması qənaətinə gələn respondentlərin 52,1 faizi hesab edir ki, tədris mühiti yorucudur, 24,4 faizi tədrisin keyfiyyətinin yoxlanılmasını effektsiz sayır, 13,4 faizi tələbələrin intizamsiz olmasını səbəb kimi göstərir, 10,1 faizi isə müəllimlərin

məsuliyyətsiz olması qənaətindədir.

16. Online təhsil zamanı tədris mühitinin pis olmasını nə ilə izah edə bilərsiniz? (bu sualı 15-ci sualın cavabında pis variantını seçənlər cavab verməlidir)

119 responses




Online tədrisin dinamikasının qiymətləndirilməsi zamanı sorğuya cəlb olunanların 54,9 faizi yaz semestri ilə müqayisədə payız semestrində tədrisin keyfiyyətinin dəyişmədiyini iddia edib. Respondentlərin 26,9 faizi keyfiyyətin yaxşılaşdığı, 18,1 faizi isə pisləşdiyi qənaətindədir.

17. Əgər müqayisə etsəniz, yaz semestri ilə müayisədə payız semesterində online təhsilin keyfiyyəti necə olub?

182 responses




Tədrisin keyfiyyətinin qiymətləndirilməsi zamanı istifadə olunan 100 ballıq şkaladan istifadə olunub. Online təhsili sorğuya cəlb olunanların 42,9 faizi 30-50 bal aralığına, 23,1 faizi 30 baldan aşağı, 22,5 faizi 50-70 bal aralığında, 8,8 faizi 70-90 bal aralığında, 2,7 faizi 90-100 bal aralığında qiymətləndirib. Göründüyü kimi, respondentlərin 66 faizi, demək olar ki, hər 3-

dən ikisi tədrisin keyfiyyətinin 100 ballıq şkala üzrə 50 balla və ondan aşağı qiymətləndirib.




Sorğu vasitəsilə respondentlərin  pandemiya dövründə online təhsil siyasətinə münasibəti də öyrənilib. Sorğu iştirakçılarının yalnız 6 faiz onu tam effektli hesab edir, 47,3 faizi effektli, 46,7 faizi isə qismən effektli kimi qiymətləndirib.




Online təhsilin effektli olmadığını iddia edənlərdən effektivliyin artırılması yolları soruşulub. Sorğu iştirakçıları tərəfindən maraqlı təkliflər səsləndirilib. Sorğuya cəlb olunanların 33 faizi müəyyən limitdə internetə çıxışın ödənişsiz olmasını, 29,7 faizi tələbələrə texniki dəstək

göstərilməsini, 23,1 faizi müəllimlərə metodiki və texniki dəstək göstərilməsini təklif edib.



## 2.2. Müəllimlər pandemiya dövründə online təhslil necə qiymətləndirir?

COVID-19 pandemiyasının Azərbaycanda gənclərin təhsilinə təsirini qiymətləndirmək üçün 120 müəllim arasında da sorğu keçirilib. Sorğuda iştirak edən müəllimlərin 54,2 faizi qadın, 45,8 faizi isə kişilərdən ibarət olub. Onlar 62,5 faizi 30-50, 20,8 faizi 20-30 yaş aralığını təmsil edib, 16,7 faizinin yaşı isə 50-dən çox olub. Respondentlərin 76,7 faizi evli, 23,3 faizi isə subay olub. Onların 57,5 faizi Bakıda, 24,2 faizi rayonda, 18,3 faizi isə digər şəhərlərdə yaşayır. Sorğuda iştirak edənlərin 79,2 faizi müəllim, 10 faizi dosent, 7,5 faizi baş müəllm, 3,3 faizi isə professor elmi vəzifəsinə malik olub. Respondetlərin 58,3 faizi orta məktəbdə, 30 faizi universitetdə, 8,3 faizi kollecdə, 3,4 faizi isə akademiyada çalışdığını bildirib.

